# Hər kitab bir dünyadır

**Filologiya elmləri doktoru, professor Vaqif Sultanlının yenicə yayımlanmış "Azərbaycan mühacirət ədəbiyyatı: başlanğıcdan günümüzədək" kitabı ən qədim dövrlərdən çağdaş dönəmədək mühacirətin keçib gəldiyi yolun, zəngin ədəbi-bədii və nəzəri-kulturoloji irsin araşdırılması baxımından önəm daşıyır.**




**Azərbaycan Dövlət Nəşriyyatında çap olunan bu kitab müəllifin mühacirət ədəbiyyatı ilə bağlı ilk araşdırması deyil. Belə ki, onun eyni mövzuda neçə-neçə kitabı və məqalələri var.**

Vaqif Sultanlının yeni kitabını əvvəlki araşdırmalarından fərqləndirən əsas cəhət burada mühacirət ədəbiyyatının tarixinə bütöv və sistemli şəkildə yanaşılmasıdır. Müəllif VII əsrin sonları VIII əsrin əvvəllərində Mədinəyə köç etmiş məvali şairlərdən başlayaraq Sovetlər Birliyinin dağılmasından sonra mühacirətin yayılma arealına qədər geniş zaman kəsimini əhatə edib, bu dönəmdə yaranmış ədəbi-kulturoloji irsin ümumi mənzərəsini canlandırıb.

***




**Ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan və Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) məxfi materialları əsasında İlham Tumasın hazırladığı "Gizli cinayətlər" kitabı çapdan çıxıb.**

Kitabda Azərbaycan xüsusi xidmət orqanının müxtəlif vaxtlarda həyata keçirdiyi əməliyyatlar haqqında araşdırmalar yer alıb. Nəşr Karyera və İşə Hazırlıq Mərkəzinin dəstəyi ilə çap olunub və layihə rəhbəri isə Şahin Sərdarlıdır.

Kitabdakı sənədlər və fotolar oxuculara ilk dəfə təqdim olunur.

***

**Qərbi Azərbaycan İcmasının binasında tanınmış jurnalist Səyyad Ağbabalının nəfis şəkildə çapdan çıxmış "Ağbaba" kitabının təqdimat mərasimi keçirilib.**




Tədbirdə Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcmasının sədri Əziz Ələkbərli, Yazıçılar Birliyinin katibi, Mətbuat Şurasının sədri Rəşad Məcid, eləcə də ziyalılar, yazıçılar, müəllifin sənət dostları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Bildirilib ki, S.Ağbabalının "Bir ömür yaşadım ağlı-qaralı" publisistik toplusundan sonra qələmə aldığı "Ağbaba" kitabının ön səhifələrində ümummilli lider Heydər Əliyevin Qərbi Azərbaycan haqqında söylədiyi fikirlər, eləcə də Prezident İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı etdiyi çıxışdan seçmələr verilib. "Ağbaba" poemasında isə müəllifin yurd həsrəti, doğma od-ocaq sevgisi, eyni zamanda, bu qədim mahalımızın tarixi, mədəni irsi, ənənələri, milli-mənəvi adətləri əks olunub.

***Ə.ƏLİYEV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2023.- 7 iyun.- S.9.